# AZƏRBAYCAN RESPUBLİKASI
# ELM VƏ TƏHSİL NAZİRİ

**ƏMR**

№3-29/3-2-290F/2023

Bakı şəhəri "24" 05 2023il

**Bakalavriat və magistratura səviyyələrində SABAH qrupları layihələrinin vahid layihədə inteqrasiya etdirilməsi və 2023/2024-cü tədris ili üçün SABAH qruplarına tələbə seçimi müsabiqəsinin keçirilməsi barədə**

Bakalavriat və magistratura səviyyələrində SABAH qrupları layihələrinin vahid layihədə inteqrasiya etdirilməsi və müvafiq ixtisaslar üzrə təhsildə yüksək nəticələr göstərən tələbələrin 2023/2024-cü tədris ili üçün SABAH qruplarının bakalavriat və magistratura səviyyələrinə tələbə seçiminin aparılması məqsədi ilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. Bakalavriat və magistratura səviyyələrində SABAH qrupları layihələri birləşdirilsin və qeyd olunan səviyyələrdən ibarət vahid SABAH qrupları layihəsi təşkil edilsin.
2. SABAH qruplarının idarə edilməsi elm və təhsil nazirinin 20.12.2022-ci il tarixli F-729 nömrəli əmrinə əsasən həyata keçirilsin.
3. SABAH qruplarının vahid şəkildə idarə olunması mövcud SABAH qrupları İcra Komitəsinə (E.Qocayev) həvalə edilsin.
4. 2023/2024-cü tədris ili üçün bakalavriat səviyyəsində SABAH qruplarına tələbələrin seçimi müvafiq ixtisaslar və baza ali təhsil müəssisələri üzrə aparılsın (Əlavə 1).
5. 2023/2024-cü tədris ili üçün magistratura səviyyəsində SABAH qruplarına tələbələrin qəbulu müvafiq ixtisaslar və baza ali təhsil müəssisələri üzrə aparılsın (Əlavə 2).

6. Elm, ali və orta ixtisas təhsili şöbəsi (Y.Piriyev), Azərbaycan Respublikasının Təhsil İnstitutu (R.Əzizov) və SABAH qrupları İcra Komitəsi (E.Qocayev) bakalavriat və magistratura səviyyələrində SABAH qrupları layihələrinin vahid layihədə inteqrasiya olunması ilə əlaqədar məsələlərin həllini və hər iki səviyyə üzrə müvafiq olaraq tələbə seçimi müsabiqəsinin keçirilməsini təmin etsinlər.

7. Müvafiq baza ali təhsil müəssisələrinin rəhbərləri SABAH qrupları layihəsinin fəaliyyəti ilə əlaqədar bu əmrdən irəli gələn tələbləri nəzərə alsınlar.

8. Azərbaycan Respublikasının Təhsil İnstitutu (R.Əzizov) SABAH qruplarının gələcək inkişafı və təkmilləşdirilməsi ilə bağlı təkliflər toplusunu bir ay ərzində hazırlayıb, ETN rəhbərliyinə təqdim etsin.

9. Maliyyə şöbəsi (R.Orucov), Təhsilin iqtisadiyyatı və statistika şöbəsi (K.Kərimzadə) və Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi (V.Mirzalıyev) bu əmrin icrasından irəli gələn SABAH qruplarının maliyyə və maddi təminatını bu qruplar üçün ayrılmış xüsusi vahid büdcədən və mövcud maddi-texniki bazadan təmin etsinlər.

10. İnformasiya və vətəndaşlara xidmət şöbəsi (R.Xanlarov) əmrin surətinin aidiyyəti üzrə göndərilməsini təmin etsin.

11. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** Nazir müavini F.Qurbanovun 02.05.2023-cü il tarixli, 3-29-02-1797 nömrəli təqdimatı.

**Emin Əmrullayev**

ƏSLİ KİMİ DÜZDÜR

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ * İNFORMASİYA VƏ VƏTƏNDAŞLARA XİDMƏT ŞÖBƏSİ